**İlhamə Məmmədova** [58]

# XV ƏSR SUFİ TƏFƏKKÜR TARİXİNƏ BİR BAXIŞ

**Giriş.** İranda təsəvvüfün genişlənməsi monqollar dövründə artmış Teymurilər dövründə isə davam etmişdir. Bu dövrün xüsusiyyətləri sırasında sufi-şiə hərəkatlarının genişlənməsi və xanəgahların artımını göstərmək olar [3, s. 3].

Teymuri dövrünün xüsusiyyətlərindən biri şiə-sufi cərəyanlarının meydana gəlməsi olmuşdur. Bu dövr təsəvvüflə şiəlik arasında əlaqə baxımından xüsusi xarakterə malik idi. Bu iki ayin öz fərqli xüsusiyyətlərini itirərək, hər ikisinə fəlsəfə ünsürünün əlavə olunması ilə bir-biri ilə qarışmış, ilk dəfə sufilik və şiəlik tarixində hər ikisinin qarışığından əmələ gələn fikir hərəkatlarının nümunələri yaranmışdır. Bu dövrdə bir şiə fəqihində sufi xüsusiyyətləri təzahür edir, bir sufidə isə şiə mütəkəllimінin nümunələri müşahidə olunurdu. Bu dövrdə həm təsəvvüf, həm də şiəliyin yenilikçi təbiəti yaranmış, hər iki əqidənin ardıcılları əsil və üstün fikirləri təqdim etməyə çalışırdılar. “Hürufilik” və “Nurbəxşiyyə” bu hərəkatların iki nümunəsi sayılır.

Teymurilər dövrünün digər xüsusiyyəti isə təsəvvüfün fövqəladə inkişafı və bu dövrdə xanəgahların çoxalması sayıla bilər. Teymur ya həqiqətən, ya da hiylə yolu ilə bəyan edirdi ki, təsəvvüf şeyxlərinə böyük ehtiramı vardır. Onun əlaltıları, şahzadələr, əmirlər, sərdarlar və başqaları din xadimləri, xüsusilə sufi şeyxlərinin tərəfini saxlamaqda onu təqlid edirdilər. Buna görə də Teymurun və canişinlərinin dövründə xanəgah və məscidlərin vəziyyəti yaxşılaşır, dinin, irfan və təsəvvüfün təsiri əvvəkindən daha çox duyulurdu. Xanəgah və mədrəsələrdə dinlə təsəvvüf o qədər yaxınlaşmışdı ki, şəriəti təriqətdən ayırmaq çətinliklə mümkün olurdu. Təsəvvüf xanəgah və zaviyələrin artması, sufi şeyxlərinə ehtiram nəticəsində genişlənmişdi. Belə ki, XV əsrdə fərqli baxışlı çoxsaylı sufi silsilələri, müxtəlif məslək və yollar yaranmışdı ki, hər biri öz yolu ilə irəliləyirdi.

**Əsas hissə.** Şəriət və təriqətin birləşməsi nəticəsində böyük şeyxlər və xanəgah səhabələri şəriət qaydalarını qoruyanlar sayılırdılar, insanlar onlardan din xadimlərindən gözəl rəftar və kirdarı gözləyirdilər. Digər tərəfdən XIII əsrdə elmi təsəvvüfün yayılması, elmi və dərs kitablarına təsəvvvüf və irfanın prinsiplərinin daxil olması nəticəsində tədricilə bu xüsusiyyət sufilərin inhisarından çıxdı, mütaliə əhli onun çox dəqiqliklərindən xəbərdar oldu. Buna görə də XIV əsrdən sonra irfan və irfan istilahları farsdilli əsərlər və şeirlərə nüfuz etdi, dərvişlik, sufi düşüncələri onlara təsir göstərdi və hətta adi adamlara da sirayət etdi.

Teymurilər dövründə təsəvvüf müxtəlif səbəblər üzündən çox geniş yayılmışdı. Amma bu genişlənmə səthi xarakter daşıyırdı. Əslində dövrün sufilərinin hamısı bir minvalda deyildilər, hamı haqqın camalının axtarışında və mütləq zatın müqəddəs sahəsinə qovuşmaq uğrunda mübarizə aparırdı. Özlərində bu xüsusiyyətlərin olduğunu iddia edən bir qrup öz riya xirqələri altında günahlarını gizlədir, zahirdə zikr, zöhd, kəramət iddiası edirdilər. Sadəlövh xalqı isə öz arxalarınca sürükləyirdilər. Digər bir qrup isə fəqih, abid, zahid libası altında sadə camaatı aldadır, öz dünya mənfəətləri üçün istifadə edirdilər. Bu riyaların əsas səbəblərindən biri şahzadə və əmirlərin şeyxlər, ariflər və sufilərə göstərdiyi misilsiz ehtiramdan irəli gəlirdi. Əmirlər çox vəqf və nəzirləri onların ixtiyarına verir, iştiraklarından faydalanmaq üçün yarışa girir və öndə olmaq istəyirdilər.

Dövrün böyük sufi firqələri “nəqşbəndiyyə”, “nemətullahiyyə” və “səfəviyyə” olmuşdur. Teymurilər dövründə də sufilər və ariflər arasında əqidə və düşüncə ixtilafları olmuşdur. Bu dövrdə ən nüfuzlu və mühüm sufi firqəsi Xorasan və Mavərənnəhrdə olan “Nəqşbəndiyyə” silsiləsi idi ki, təriqətdə mötədil, şəriət və məzhəbdə sünni idilər. Bu silsilənin şeyxləri əqidə əsaslarından biri olan “əncüməndə xəlvət” prinsipinə görə zahirdə xalqla, batində isə haqqla idilər. Onların əqidəsi belə idi ki, həmişə elə işlə məşğul olmalıdırlar ki, camaatdan fərqlənməsinlər. Amma şəriətin dövrün şah və əmirlərinin köməyi olmadan qüvvətlənməsi mümkün deyildi. Onlar dövrün padşah və əmirlərinə yaxınlaşmağa ciddi-cəhdlə çalışırdılar. Şahlar və əmirlərlə əlaqələrin qurulması qəti şəkildə firqənin qüvvətlənməsinə səbəb olurdu və nəticədə daha çox insanlar onlara meyl edirdi.

Bu təriqət XIV əsrin məşhur sufilərindən olan Xacə Bəhaəddin Məhəmməd Nəqşbənd Buxarinin (vəf. 791) adından “Nəqşbəndiyyə” kimi tanınmışdır. Bununla belə demək lazımdır ki, hələ üç əsr əvvəl onun binasının əsası qoyulmuş, sütunları isə üç böyük sufi şeyxi vasitəsilə möhkəmlənmişdi. Bu üç sufi Əbu Əli Fəzl bin Məhəmməd Farmədi, Xacə Əbu Yaqub Yusif Həmədani, Xacə Əbdülxaliq Əcdəvani olmuşdur. Xacə Əbdülxaliq “Xacəqan” silsiləsinin həqiqi təsisçisi olmuşdur ki, sonralar “Nəqşbəndiyyə” adı ilə tanınmışdır.

Bu silsilənin şeyxlərindən bəzisi Teymuri dövründə çox məşhurlaşmışdı ki, onların arasından Əlaəddin Əttar, Xacə Həsən Əttar, Xacə Məhəmməd Parsa, Xacə Əbu Nəsr Parsa, Xacə Əlaəddin Əcdəvani, Xacə Nizaməddin Xamuş, Xacə Abdullah İmami İsfahani, Sədəddin Kaşğari, Xacə Übeydullah Əhrar, Mövlana Əbdürrəhman Camini göstərmək olar.

Teymurdan sonra Şahrux, Əbu Səid, Sultan Hüseyn Bayqara kimi padşahlar bu silsilə şeyxlərinə ehtiram göstərir, iki dünyanın feyzini onların müqəddəs ruhundan istəyirdilər, yaşayış və məad işlərində onlardan kömək diləyirdilər.

Bu dövrün mötəbər sufi firqələrindən biri də “Nemətullahiyyə” firqəsidir. “Vəli” təxəllüsü ilə tanınan Seyyid Nurəddin Nemətullah bin Abdullah bin Məhəmməd Kuhbənani Kirmani bu firqəni yaratmışdır. O XIV əsrin sonu XV əsrin əvvəllərində məşhur İran ariflərindən biri olmuşdur, onun insanlar arasında yayılan çoxlu şeirləri vardır. Bu firqəni Şah Nemətullah Vəlinin ardıcılları təşkil edir. Öz nəsəbini İmam Sadiqə çatdıran Nemətullah bin Abdullah 731-ci ildə (1330) Heratın Kohestan qəsəbəsində anadan olmuşdur. Uşaqlıq dövrünü keçirəndən

[58] AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun dissertantı, filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-4118-8893
ilhama.mamedova72@gmail.com

Şeyx Rüknəddin, Şeyx Şəmsəddin, Seyyid Cəlaləddin və Qazi Əsədüddinin yanında müxtəlif etlmləri öyrənəndən sonra böyüklər və ariflərlə tanış olmaq üçün Məkkə, Mədinə, Bəlx, Mavərənnəhr, Xorasan kimi şəhərlərə səfər etmiş və həmin yerlərin ariflər və alimləri ilə görüşmüşdür.

Əmir Teymur onu müridlərinin çoxluğu bəhanəsi ilə Türküstanı tərk etməyə vadar etmiş, o bir müddət Kirmanda qalaraq Mahanda xanəgah, bağ və hamam tikdirmişdir. O dövrün padşah və əmirləri, o cümlədən Şahrux, Mirza İskəndər bin Ömər Şeyx ona böyük ehtiram göstərmişlər.

O, 790-cı ildə, yəni təqribən 60 yaşında olarkən Herat şəhərinə gəlmişdir. Heratda "Seyyid Hüseyni Sadat" adlı yerə getmişdi. Bir müddətdən sonra oranın ələvilərindən biri olan Seyyid Həmzə Hüseyni Herəvinin qızı ilə evlənmişdi. Bu elçilik qəbul olunmuş və Heratda evlənmişdi. O evlənəndən sonra Morğaba getmiş, bir il orda qalandan sonra Kirmana yollanmışdı.

Qazi Nurullah Şah Nemətullah Vəli haqqında bir dastan nəql edir ki, onun Şahrux Darussəltənəsində olmasından xəbər verir. O yazır:

"Şah Nemətullah Şahruxun dəvəti ilə Heratda yaşayan zaman müxtəlif ölkələrin padşahları onun üçün hədiyyə göndərirdilər. O həm özü istifadə edir, həm də ehtiyacı olanlara bağışlayırdı. Bir gün Şahrux ondan soruşdu: "Eşidirəm ki, siz şübhəli tikələr yeyirsiniz, onun hikməti nədir? Cavab verdi:

گر شود از خون دو عالم مالامل

كي خورد مرد خدا الا حلال[2, s. 98]

Əgər iki aləm qanla dolarsa,
Allah adamı halalları necə yeyər?

Şahrux bu sözdən incidi. Bir müddətdən sonra əsgərləri bir qoyunu zorla qarıdan alıb süfrə bəzədilər və Şah Nemətullah Vəlini çağırdılar. Qurkanilərin padşahı və Nemətullahilərin başçısı hər ikisi birlikdə süfrə arxasında əyləşdilər və yemək yeməyə başladılar. Bir müddətdən sonra Şahrux dedi: "Siz yalnız halal yemək yediyinizi deyirdiniz. Halbuki bizim zorla qarıdan aldığımız qoyunun ətindən yeyirsiniz." Cavab verdi: Bu barədə çox və yaxşı araşdırın və məsələnin gerçəkliyini tapın". Qarını çağırdılar və ondan soruşdular. Dedi: "Qoyunu Şah Nemətullaha nəzr etmişdim ki, ona təqdim edim. Nəzrimə əməl etmək istəyirdim ki, siz qoyunu zorla məndən aldınız".

Bu dastan onu göstərir ki, Şah Nemətullah h.q. 790-cı ildən sonra, yəni Teymuri padşahlarının dövründə, Şahruxun hakimiyyət illərində də Herata gəlmişdir.

Şah Nemətullah Vəli şiə sufilərinin başçılarından olmuşdur. Onun şiəliyinə dəlalət edən sübutlardan biri aşağıdakılardan ibarətdir:

1. On iki hissəli tac. Şah Nemətullah Vəlinin on iki tərəfli tacı olmuşdur ki, bəziləri bunu onu şiəliyi ilə əlaqələndirmişlər və demişlər: "On iki ədədi on iki imama işarədir."
2. Qabaqcadan Səfəvilər dövlətinin yaranmasını xəbər vermək. Deyilir ki, o öz proqnozlarında şiə Səfəvi səltənətinin yaranması haqqında məlumat vermişdir. Bundan başqa, Səfəvi dövlətinin ərazisində yaşayan davamçılarından hər biri Səfəvilər tərəfindən ehtiramla qarsalanmışlar. Belə ki, Əmir Nizaməddin Əbdülbaqi adlı biri Şah İsmayılın sarayında sədrə-əzəm məqamına qədər yüksəlmişdir.
3. Onun yazıları. Şah Nemətullah Həzrət Əlinin mədhində çoxlu şeirlər yazmışdır ki, bunu da şiəlikdən qaynaqlandığını deyirlər.

O, Herat və Morğabdan başqa bugünkü Əfqanıstanın digər bölgələrinə də, xüsusilə Cuzcanana səfər etmişdir. Çünki belə yazırlar: Şəbrəğan yaxınlığında olan Cuzcanan məntəqəsində Sərpol adlı bir çay vardır ki, Seyyid Nemətullah Vəli adı ilə məşhurdur. O həzrət həmin yerdə bir müddət qaldığına görə onun adı ilə adlandırılmışdır.

Şah Nemətullah məşhur təriqət rəhbərlərindən sayılır. O, Heratdan Cuzcana qədər səfər etmiş, bu səfərlərdə çoxlu adamlarla söhbətlər apararaq insanları az-çox öz təriqətinə dəvət edə bilmişdir. Nemətullahiyyənin Əfqanıstanda nüfuzunu təsvir etmək üçün bu təriqətin bir neçə mühüm xüsusiyyətinə diqqət etmək lazımdır:

Dinin zahiri hökmlərinə bağlılıq. Şah Nemətullah şəriəti təriqətin üz qabığı sayan və ona o qədər də etina etməyən sufi firqələrinin bir qrupunun əksinə olaraq özünü və ardıcıllarını şəriət hökmlərinə əməl etməyə vadar edirdi. O çalışırdı ki, seyroü-suluk qaydaları da şəriət qaydaları çərçivəsində qalsın, hind məktəblərindən yol tapmış qeyri-dini nöqasanlar və qaydalar ondan uzaq olsun. Onun bu addımı fəqihlər və sufilər arasında ixtilafi azaltmaq üçün çox mühüm addım idi, bəlkə də nemətullahiyyənin davam etmə amillərindən biri də elə bu məsələ idi.

Təsəvvüfü hər kəsə aid etmək. Həmin dövrdə və ondan qabaqkı dövrlərdə sufi böyükləri hər kəsi öz icmalarına buraxmırdılar. Yalnız o kəsləri qəbul edirdilər ki, onların baxışında istedad və bacarığa malik idilər. Amma Şah Nemətullah hər şəhər və diyarda bütün təbəqələrlə danışır və təsəvvüfü xüsusi bir qrup və müəyyən bir təbəqəyə aid etmir, hər kəslə bu barədə söhbətlər aparırdı. O, "hər kəs öz şəraitinə uyğun olaraq istedada malikdir" baxışı ilə heç kəsi özündən uzaqlaşdırmırdı. O insanların mənəvi inkişafi və təhsilinə, əxlaqi tənəzzülün aradan qaldırılmasına xüsusi səy göstərir və onu özü üçün ilahi vəzifə sayırdı. Bu ruhiyyə insanları hidayətində böyük tərəqqisinə səbəb oldu. Bu tərəqqi də nemətullahiyyə təriqətinin misilsiz inkişaf və nüfuzuna səbəb oldu.

İnsanlara xüsusi diqqət: İnsanlarla oturub-durmaq, onların problemlərinin həlli üçün çalışmaq onun digər xüsusiyyətlərindən idi ki, şübhəsiz hamı tərəfindən sevilməsinə böyük təsir göstərmişdir. Bu şəxsi xüsusiyyəti Şah Nemətullah Vəlini digər qeyd edilmiş xüsusiyyətləri ilə birlikdə insanları cəlb etməsinin mühüm amili saymaq olar. Bu da Şah Nemətullahın Herat və digər bölgələrdə nüfuz qazanmasına səbəb olmuşdur.

Nemətullahiyyə adlanan Şah Nemətullahın irfani yolu və üslubu onun ölümündən sonra da davam etmişdir. Oğlu Şah Bürhanəddin Xəlilullah Kirmanda onun yolunu davam etdirirdi. Amma Şahrux Mirza onu Herata çağırmışdır. O, Heratda Şahruxdan böyük ehtiram və sayqı görmüşdür. Saraya azad şəkildə gedib-gəlirdi.

Şahruxun böyük oğlu Baysunqur Mirza Şah Xəlilə böyük ehtiramı və səmimiyyəti vardı. Qonaqlıqlarda şəxsən qızıl teşt və səhəngi əlinə alırdı ki, Bürhanədddin əllərini yusun.

Nemətullah əsl sufi idi, kamil insan və üstün silsilələrdən danışır və "Füsusul-hekəm"ə işarə edirdi. O söhbətlərində Həllac və başqalarının adını çəkir və Bəyazid Bistamiyə böyük ehtiramını nümayiş etdirir, hətta onu İmam Əli ilə müqayisə edirdi.

O öz adından bir hürufi məna çıxartmış və "Nemətullah"ı "Fəzlullah" müqabilində ilahi xüsusiyyət kimi qoymuşdur. Nemətullah öz "Divan"ında dəfələrlə bu mənanı yazmışdır. Onun təriqətində də fərqli zikr müşahidə olunurdu. Belə ki, mürid oturmuş halda sağ əlini sol dizinə, sol əlini sağ dizinin üzərinə qoyur və bədənini soldan sağa hərəkət etdirir və "La ilahə illəllah" kəlməsini ürəyindən keçirirdi. Bu zikr sufilərin "səma"sından çəkinmə xüsusiyyətinə də malik idi.

Şah Nemətullahdan sonra oğlu Seyyid Xəlilullah atasının yerini tutmuş və ardıcıllarına rəhbərliyi öhdəsinə götürmüşdü. Şah Nemətullahın çoxlu müridləri vardı, onun şöhrəti İrana yayılmış və Hindistana qədər gedib çıxmışdı. Şah Nemətullahın irfani məzmunlu çoxlu əsərləri olmuşdur. Bundan əlavə 13 min beyti əhatə edən divanı vardır. Divanında bir neçə qəsidə, məsnəvi, çoxlu qəzəl və rübailər toplanmışdır.

Şah Nemətullah Vəlinin qəzəllərinin əsas mövzusu vəhdəti-vücud haqqındadır və onun şeirləri dini, irfani və fəlsəfi istilahlarla doludur [4, s. 23].

Onun mənəvi nüfuzu və irfani təlimləri o qədər genişlənmişdi ki, İranın əmir və sultanlarından başqa Hindistanın Dekən padşahlarının bəzisi – Sultan Şəhabəddin Əhməd Şah Vəli Bəhməni (h.q.825-838) və övladı Əlaəddin (h.q.838-862) Şah Nemətullah Vəliyə, ondan sonra isə ailəsinə və tərəfdarlarına xüsusi ehtiram göstərmişdilər. Bununla da uzaq Hindistan bölgələrində fars dilinin inkişafi və yayılması üçün əlverişli şərait yaranmışdı. Şah Nemətullah Vəli 834-cü ildə (1431) 103 yaşında vəfat etmişdir. Cəsədini Mahanda torpağa tapşırmışdılar. Sonralar Dəkən padşahı Sultan Əhməd Bəhməninin əmi ilə məzarının üzərində türbə düzəltmişdilər. 840-cı ildə bu tikili sona çatdırılmış və II Şah Abbas dövründə ona başqa binalar da əlavə olunmuşdur. Həmin türbə indi də nemətullahi sufilərinin ziyarətgahı olaraq qalır.

Digər mühüm təsəvvüf ocağı Azərbaycanda Şeyx Səfiəddin Ərdəbilinin ailəsi idi. Bu dövrdə Şeyx Sədrəddin bin Şeyx Səfinin (vəf.h.q. 830) övladı Xacə Əli, Xacə Əlinin övladı Şeyx Şah kimi tanınan Şeyx İbrahim Kiçik Asiya, İranın qərb və şimal bölgələrində çoxlu ardıcılları və müridləri vardı. XV əsrin şairlərindən olan Qasim Ənvar kimi tanınan Seyyid Qasim Təbrizi hürufiyyə düşüncələrinə meyilli olsa da, Şeyx Sədrəddin Ərdəbilinin şagirdlərindən olmuşdur.

**Nəticə.** Araşdırmadan məlum oldu ki, XV əsrdə sufizm daha geniş əraziləri əhatə etmiş və onun inkişafina bir çox təriqətlər təkan vermişdir. Həmin təriqətlərdən "nəqşbəndiyyə", "nemətullahiyyə", "səfəviyyə", "hürufiyyə" və digərlərinin adını çəkmək olar. Teymurilər dövründə sufilər və ariflər arasında əqidə və düşüncə ixtilafları daha da dərinləşmişdi. Nemətullahiyyənin nüfuz dairəsi Əfqanıstanda da yayılmışdır. Şah Nemətullah Vəli həm təriqət başçısı, həm də böyük şair kimi həmin dövrdə xeyli şöhrət qazanmışdır. Onun yazdığı "Divan" həmin dövr sufi təfəkkür tərzini çox aydın şəkildə göstərir.

**İstifadə olunmuş ədəbiyyat**

1. https://ganjoor.net/shahnematollah
2. https://ganjoor.net/moulavi/masnavi/daftar2/sh98
3. پوراندخت رمضان جمعات، ناصر جدیدی. بررسی تاریخ تصوف و تشیع در دوران حکومت تیموریان ایران. فصلنامه علمی تاریخ ایران اسلامی دانشگاه آزاد اسلامی واحد شوشتر. شماره 2، 1400، ص. 1-17
4. غلامرضا مستعلی پارسا، محمد حسینایی. تاملی در سبک شعر شاه نعمت الله ولی. فصلنامه نخصصی سبک شناسی نظم و نثر فارسی (بهار ادب)، شماره 9، 1389، ص. 23035

**Keywords:** Sufism, Shan Nematullahiyya, sect, murshid
**Ключевые слова:** суфизм, Шан Нематулла Вели, секта, муршид.

## A look at the history of sufi thought in the 15th century

**Summary**

The article traces the history of the development of Sufism in the 15th century. During this period, very famous Sufi orders emerged and developed. Among these orders, the following can be mentioned: "Naqshbandiyya", "Nematullahiyya", "Safawiyya", "Hurufiyya" and others. During the Timurid era, the differences in beliefs and thoughts between Sufis and scholars deepened. The sphere of influence of Nematullahiyya also spread to Afghanistan. Shah Nematullahiyya gained considerable fame during that period as both the head of the order and a great poet. His "Divan" clearly shows the Sufi style of thought of that period.

## Обзор истории суфийской мысли пятнадцатого века

**Резюме**

В статье прослежена история развития суфизма в XV веке. В этот период зародились и развивались многие известные суфийские секты. Среди этих сект можно назвать «Накшбандия», «Нематуллахия», «Сафавия», «Хуруфия» и другие. Во времена Тимуридов различия в верованиях и мышлении между суфиями и учеными углубились. Круг влияния Нематуллахии также распространяется в Афганистане. Шах Нематулла Вели в тот период приобрел большую известность как глава секты и великий поэт. Написанный им «Диван» ясно показывает суфийский образ мышления того периода.

**RƏYÇİ: dos. N.Əfəndiyeva**